YENİ TƏFƏKKÜR
Yüksəlişə doğru yol!

# PAŞALI ARZULAR

***25** il bundan əvvəl, isti yay günlərindən biri idi. Təbiət dayanmışdı sanki. Ağacların kölgəsindən belə buxar qalxırdı. Avqust ayının yandırıcı şüalarından nəfəsi daralan Həkim, yenidən ata olacaqdı.*

Çox həyacanlı idi. Yeni doğulacaq körpəsinin oğlan olacağı ürəyinə dammış kimi, adını da dəqiqləşdirmişdi. Qardaşının adını verəcəkdi körpəyə. Çox erkən dünyasını dəyişən qardaşı Paşanın faciəli ölümü həmişə onu yandırırdı. Subay, nakam dünyadan köçən qardaşından doymamışdı Həkim.

Üç oğul atası idi, ilk övladına da atasının adını vermişdi...

Nədənsə bu gün qardaşı Paşa xəyalından getmirdi. Tez-tez yuxu kimi gözlərinə görünüb, çəkilirdi...

Yandırıcı avqust ayının 13-ü idi. El arasında "nəhs" adlandırılan bu rəqəm Həkimə sevinc gətirdi...

Birdən-birə hava sərinlədi, xəfif külək əsməyə başladı və bu sərinlik atanın ürəyini sərinlətdi...

Oğul balası dünyaya gəldi...

Çox sevincək idi, sevinci həm də qardaşının adıyla bağlı idi...

Ürəyində yüz yol şükür etdi;

- Böyüklüyünə şükür, Ya Rəbbim, Paşamı mənə qaytardın. Qardaşımın yarım arzularını oğlum başa vurar...

Kiçik Paşa ailənin sonbeşiyi və ən sevimlisi oldu. İllər göz qırpımında ötüb keçirdi. Paşa məktəb yaşına yetəcək qədər böyümüşdü. 2002-ci ildə doğulduğu Çərəcə kəndində birinci sinifə qədəm qoyan 6 yaşlı Paşa müəllimlərin sevimlisi oldu. Davranışı və səmimiliyi ilə özünə yer etmişdi. Artıq gözəgəlimli, yeniyetmə, yaraşıqlı bir oğlan olmuşdu. Orta məktəbi




2013-cü ildə bitirən Paşa, elə həmin ili də həqiqi hərbi xidmətə çağırılaraq, Bakıda yerləşən Hava hücumlarından müdafiə hərbi hissəsində qulluq edir....

Sonbeşiyinin gəlişini həsrətlə gözləyən ata-ana nəhayət balalarına qovuşurlar...

Paşa elə bil nəsə olacağını, vaxtının azaldığını hiss etmişdi. Həyatda istədiyi hər şeyə çatması üçün can atırdı. Zövqlə geyinməyi, gəzməyi, maşını olmasını çox istəyirdi və bu istəyinə çatmışdı. Təbiətən çox sakit, mehriban və diqqətcil idi Paşa.

Dinə çox bağlı idi, namaz qılar, oruc tutardı. Allahın sevimlisi olduğunu isə bilmirdi bu məsum bala.

Valideynləri, qardaşları toyunu görmək arzusunda idi evin sonbeşiyinin.

Deyir, " Sən saydığını say, gör fələk nə sayır".

Vətənin üzərini qara buludlar alarkən, müdafiə məqsədilə olan çağırış, çoxu kimi Paşadan da yan keçmədi...

2020-ci ilin 27 sentyabr tarixində səfərbərliyə çağırılan Paşa, ikinci Qarabağ müharibəsində ön cəbhədə torpaq uğrunda qanlı döyüşlərə qoşulur. Zirəkliyi ilə seçilən Paşa, "Göyçaylı balası" ləqəbi ilə tanınaraq döyüşçülər arasında da diqqət çəkir. Dilindən Allah kəlməsi düşməyən igidimiz, hər döyüşə qatılarkən "Ya Allah" deməklə, sanki "Şəhadətinə hazıram Allahım" deyə ismarlayırdı...

Müharibənin 19-cu günü idi, Füzuli istiqamətində ağır döyüşlər gedirdi. Mənfur düşmən durmadan mərmi yağışı yağdırırdı...

Bütün valideynlər kimi Paşanın da valideynləri hər gün acı xəbərlər eşitdikcə ürəkləri qan ağlayır, çarəsizcəsinə Allaha üz tuturdular. Ulduzə ana pis fikirləri özünə yaxın buraxmaq istəmirdi. Həkim ata isə son günlər qardaşı nakam Paşanı tez-tez xatırlayır, köks ötürürdü. Biçarə ata için-için alışıb, yanırdı, kimsəyə sezdirə bilmirdi bu yanğını. Yuxularını qarışdıran ata çox narahat idi, pis xəbər alacağından qorxurdu və qorxduğu başına gəldi...

Oktyabrın 15-i idi həmin dəhşətli gün, o gün ki, Həkim atanın ürəyində bir tel qırıldı, Ulduzə ananın nəfəsi tutuldu, ürəyi hövl elədi. Nə olduğunu bilməsələr də, nəsə olacağını hiss edirdi biçarə valideynlər...

Artıq üç rəngli payızın amansız yeli əsməkdə idi. Ata-ananın tumurcuq arzuları xəzana çevrilməkdə idi. Füzuli istiqamətindən axan qara bulud Göyçayın üzərinə çökməyə, bir ananın gözlərindən daşmağa hazırlaşırdı... Kim bilirdi ki, o an qəhrəman döyüşçümüz, igid "göyçaylı balası" Paşa, baş nahiyəsindən ağır yaralanaraq huşunu itirmişdi..

Hüşsuz halda Bakıya çatdırılan Paşa, həkimlərin səyi nəticəsində komadan ayılır. Yarasının ağır olmasına baxmayaraq igidimiz qardaşlarını tanıyır və ata-anasına hər şeyin yaxşı olduğunu çatdırmalarını tapşırır. Başından iki dəfə ağır əməliyyat olunan Paşa üçüncü əməliyyat zamanı komaya düşür və əbədi yuxuya gedərək şəhidlik məqamına yetişir...

Həkim atanın isə "Paşalı arzuları" şəhid olaraq əbədiyyətə qovuşur.

Şəhidlik zirvəsinə ucalan Paşam, uca məqamın mübarək.

Şəhadətin mübarək!

Atanın arzularını şəhid edən bala. Qardaşı Paşanın nakam ömrünü səndə yaşadın. Kam almadan köçdün bu dünyadan.

*Yuxumu əlimdən alan şəhidim,*
*Qayıt, dinclik gətir gözlərimə sən.*
*Qayıt, nakam balam, qayıt, geriyə,*
*Qayıt, şirinlik qat sözlərimə sən...*

Həkim ata isə bayrağı bağrına basaraq, dili "Vətən sağ olsun" deyərkən, ürəyi "Mən hər iki Paşamdan doymadım" dedi...

Başın sağ olsun Həkim ata.
Allah səbr versin!
Şəhidlər ölmür!
Ruhun şad olsun, Paşam!

**P.S. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən Salmanov Paşa Həkim oğlu "Vətən uğrunda" medalı ilə təltif olundu (ölümündən sonra).**

## Ay Paşam

*Sən doğulan günü atan şükür edib,*
*"İlahi, arzuma yetişdim"- dedi.*
*Qardaşı Paşanın adını verib,*
*Söylədi, nəhayət döndün, ay Paşam.*

*Sənə qardaş dedi, boyunu sevdi,*
*Nakam taleyini, toyunu sevdi.*
*Fələyin qurduğu oyunu sevdi,*
*Gözündə bir dağa döndün, ay Paşam.*

*Neçə bəstə gözəl sevdi ədanı,*
*Neçəsi gözlədi "elçi" sədanı.*
*Anan yüz yol dedi alım qadanı,*
*Sevimli balaydın, şəndin, ay Paşam.*

*Niyə birdən-birə dili lal oldun,*
*Görünüb gözlərə xoş xəyal oldun,*
*Hər kəsin qəlbində bir məlal oldun.*
*Batan Günəş kimi söndün, ay Paşam.*

*Anan yuxusunda gözləyər səni,*
*ŞƏHİD zirvəsində izləyər səni.*
*Hər an laylasında bəsləyər səni,*
*Müqəddəs varlığa döndün, ay Paşam.*

**24 dekabr 2020.**



Əfşan Yusifqızı